

# ROMAN HAQQINDA ROMAN

## yaxud Qalib Şəfahətin "Sandığ"ından çıxanlar


***Bilal ALARLI (Hüseynov),***
***ADPU Cəlilabad Filialının müəllimi,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***AYB-nin üzvü***


**(əvvəli ötən sayımızda)**

**Nabat xalanın, yəni türkün fikri bu məsələdə yaşlı erməni qadını Anuşun fikri ilə üst-üstə düşür: "Bala, bala, bu ermənilər ki, var, bunların fitnə-felindən şeytan da baş açmaz. Elə bil, gələcək köpək uşağının ovuclarının içindədi. Elə düzüb, elə quraşdırırlar ki, vaxtı yetəndə hər şey şapıltı ilə yerinə düşür. Bizimkilərə baxanda çox qabağı görəndilər. Bizimkilər bu günü fikirləşirlər, onlar həmişə gələcəklərini fikirləşirlər, gələcəklə ayaqlaşırlar". Ciddi iraddır, amma həqiqətdir. Baş verənlər bizi məcbur edir ki, iradla hesablaşaq. Romanın müəllifi bu faktları öz əsərində təsvir elədiyi hadisələrlə təsdiq edir, daha doğrusu, reallıq, həyat hadisələri söylənilənlərin həqiqət olduğunu göstərir. Nabat xalanın həqiqəti isə onun sözləri qədər ağır çəkilidir, ona görə də o, bu həqiqəti söyləməyə ehtiyat edir: "Adam çox şeyi açıb ağarda bilmir, a bala. Təkcə ağzını açmağa yox ey, düşünməyə də adam çəkinir".**

### *Romanda haşiyə kimi verilmiş,*

əslində əsas məzmun xəttini tamamlayan "Türk uçan yol" əhvalatı da maraqlı və ibrətamizdir. Bu əhvalatda erməni hiyləgərliyi əndazəsini aşır, pis məqsədlərə çatmaq üçün ən iyrənc variantlara əl atılır. Türk uçan yol: "Bir gün də xəbər yayıldı ki, Taleh erməni Vartanın qızı Haykanuş ilə maşında "şeytan azdıran yoldan" üzü dərəyə yuvarlanıb. Ondan sonra söz-söhbət səngimədi. Ağızları yummaq olmur, özün bilmirsənmi? Hansı ağzı yumasan? Kim deyirdi, nəşəli olub, kim deyirdi, qızla əməlli-başlı içiblər, kefləri saz olub, qıza özünü göstərirmiş, kəllə-mayallaq gedib. Hadisədən sonra anası havalandı. Atası ağır infarkt keçirdi, səs-soraq yuxarılara çatdı, kişi gözdən düşdü, yuxarı vəzifəyə çəkilmək cəhənnəmə, vəzifədən də uzaqlaşdırıldı. O artıq el-oba içində də nufuzunu itirmişdi. Nəsə, Taleh özündən sonraya da ad qoyub getmişdi - daha doğrusu, silinməz bir iz qoyub getmişdi: "Türk uçan yol".

Haykanuşun danışdığı əhvalat isə Bakıda baş verir, onun qardaşı itini maşınla vurmuş adamın uşağını oğurlayıb, it dərisinə bükür, it kimi saxlayır. Bu məsələnin üstü açılanda Haykanuşun qardaşı Yerevanda gizlənir. Nəticə isə çox ağır olur. Haykanuşun Marusyaya dediyinə görə, onun qardaşı avtomobil qəzasına düşür, neçə illər yataq xəstəsi olur. Həkimlər deyir, beli qırılıb, daha düzələsi deyil. Arvadı biləndən sonra ki, daha Haykanuşun qardaşından ona haray yoxdu, o da ərini atıb gedir. Xoş günün arvadıymış.

Buna bənzər başqa bir əhvalat isə "Şeytan yolu" ilə bağlıdır.

Romanda erməni qadınlarının türk kişiləri haqqında etirafları da heyrətamiz dərəcədə həyat həqiqətlərinə əsaslanaraq verilib. Erməni qadını türk kişiləri haqqında deyir: "Türk kişiləri erməni kişilərindən şorgöz olur. Türk kişiləri kimdən xoşları gəldisə, zor-xoş istəyirlər onun olsun. Həm də öz istəkləri üçün özlərini cəsarətli qorxmaz göstərirlər. Erməni kişiləri biclik işlədirlər. Biz qadınlar da bicliyi yox, cəsarətli adamları sevirik". Qarışıq ailələr bəlkə də bu istəkdən yaranır, erməni qadınını türk kişisinə bağlayan danılmaz fakt bu etirafda daha yaxşı ifadə olunub.

***Erməni qadınının cazibədarlığı onun öz gözəlliyinə münasibətinə görədir, qısaca desək, kişiləri valeh edən onun özünəbaxımlığıdır. Özünə dəyər verməyi bacaran erməni qadını gözəlliyinin qayğısına qalır, çünki onun məqsədi kişiləri heyrətləndirməkdir. Düşüncə isə sadədir: "Qadının gözəlliyindən başqa, gözəgəlimliyi də olmalıdır. Onun üçün də qadında xüsusi qabiliyyət gərək olsun, ətrafı özünə cəzb edib, ətrafla münasibət qura bilsin". Cəlbedicilik isə çox sərrast ifadə olunub: "Qıyğacı baxışları adamı gicitkan kimi dalayır".***

Romanı maraqlı edən cəhətlərdən biri də erməni qadınlarının arasındakı söhbətlərin əsasən kişi-qadın münasibətləri haqqında olmasıdır. Bir çox ailədaxili məsələlər var ki, bütün millətlərə xasdır, bunun da biri ərlə arvad münasibətləridir. Erməni ailələrindəki bəzi məqamlar türk ailələrində söz-söhbətə səbəb olmur, buna görə də müəllif həmin söhbəti erməni qadınlarının nitqinə yükləyir. Bəlkə də ailədaxili cinsi münasibətlərə bu qədər geniş yer verməsi müəllifin həkimlik peşəsi ilə bağlıdır: "Qadın yaşayanda ruhu ilə yaşayır, kişi bədəni ilə. Kişi gərək qadının ruhuna sahib çıxa bilsin. Kişi istəmədiyi qadınla yaşaya bilər. Çünki bədənini boşaldır. Qadın yaşaya bilməz. Çünki ruh boşalmır, həmişə dolmağa çalışır. Boşaldısa, demək ruh ölüb. Elə hey dolduqca dolmağa çalışır". Məsələnin bu şəkildə qoyuluşu ailə quran gənclər üçün də ibrətamizdir. Bu cür bilgi ər-arvad münasibətlərini tənzimləyə bilər. Göründüyü kimi, roman bəhs etdiyi mövzuya və hadisələrə birtərəfli şəkildə yanaşmır, oxucusunu dartıb böyük bir dünyaya aparır.

Əlbəttə, söhbət erməni qadınlarına məxsusdur və bu fikirlər onların düşüncəsinin məhsulu kimi təqdim olunur.

### *Bu da nəticəsi:*

"Həqiqəti zarafatın içində elə ustalıqla gizlədirdi ki, həqiqət onda acı yox, şirin alınırdı: "Suren kimi kişinin yanında olmaqdan Səfər kimi kişinin altında olmaq qadın üçün daha şərəflidir, - deyirdi: - Eləsinin yanında olub dərd-qəm içində boğulub ufuldanmaqdansa, beləsinin altında qalıb ahh-uuff etmək, yaşamağın dadını çıxarmaq nəyə desən dəyər. Əsas odur, yaşamağı bacarasan, kədər, qüssə içində itib-batmağı yox".

Bu yekuna isə haqq qazandırmaq bir az çətindir: "Qadın ac-yalavac, gözü əllərdə qalan uşaq kimidir, evdə, ərindən gözü, ürəyi doymadısa, həmişə çöldə, bayırda kimdəsə, nəyisə axtaracaq, gözü heç vaxt özünə yığışmayacaq". Əlbəttə, müəllif erməni qadınları arasında olan söhbətə görə bu şəkildə ifadə olunan yekun nəticəyə gəlir və həm də bu nəticə əsərin qadın obrazının nəticəsidir. Müəllifin böyüklüyü ondadır ki, obrazlar qalareyasını rəng çalarları üzərində qura bilir, buna



görə də onları bir-birindən həm təfəkkür tərzinə, həm də mənəvi-əxlaqi səviyyəsinə görə fərqləndirməyə nail olur.

**Bu isə həqiqətdir: Ərə qarşı həqarət, ikrah hissi qadında nə vaxt baş qaldırır? Cavab sadədir: "O vaxt ki, arvad özü ərinə xəyanət edir, həm də bilir ki, əri bunu hiss eləyə-eləyə özünü bilməzliyə, eşitməzliyə, görməzliyə qoyub. Bax, onda arvad kişidən iyrənməyə başlayır. Bütün başqa hisslər, qəzəb də, nifrət də sovuşub gedir, sönürmü deyim, soyuyurmu deyim, amma o hiss, yəni kişidən iyrənmək, diksinmək hissi ömürlük tərk etmir onu. Daha o adama özündən asılı olmayaraq yaxın dura bilmirsən".**

Bu cür uzun-uzadı mükalimə maraqlı sonluqla bitir, erməni qızı Marusya ərini atır, "gəzdiyi" Səfər adlı türk də arvad-uşağını qoyub evdən çıxır və Marusya ilə evlənir, iki uşağı da olur. Qarabağda vəziyyət gərginləşəndə ailə maraqlarını milli maraqlara qurban vermirlər: "Türk onu da, uşaqlarını da götürüb Rusyaya köçub. Deyib, nə türklərin içində, nə də ermənilərin içində bundan sonra xoş gün görə bilmərik. Yaxşısı budur, Rusyaya köçüb, qalan ömrümüzü orda yaşayaq". Qeyd edim ki, bu cür mükalimələr romana ağırlıq gətirmir, əksinə, onu oxunaqlı edir. Doğrudan da, belə ailələr var və Qarabağ münaqişəsindən sonra bu ailələrin faciəli həyatı başlayıb. Müharibə həm də yeni ailə quran erməni-türk cütlüklərini çıxılmaz vəziyyətə salıb, yəni müharibəyə cəlb olunmuş hər iki millət bu cür ailələrin qurulmasına ikrahla baxır. Romanda bu məsələni qoyması müəllifin bu cür aktual və ağrılı problemlərdən yan keçə bilməməsi ilə bağlıdır.

### *Bütün müharibələrin yazılmamış qanunları olduğu kimi*

***Qarabağda baş verən hadisələrin də müəmmalı tərəfləri var. Dostu intihar etmiş ermənінin Qarabağda vuruşanlarla bağlı fikirləri belə müəmmalı məqamlardan birinə aydınlıq gətirir. O, müharibəni törədənləri qınayır və bu savaşlarda yalnız kasıb balalarının qırıldığını deyir.***

Döyüşlərdə uğursuzluq baş verdikdə isə erməni müharibəni davam etdirən "başbilənlərini" hədəf götürür: "Günahın hamısı o qanmaz, özündən razı böyüklərdədir. Duxun çatmır niyə döyüşürsən? Bu camaatı niyə qırğına verirsən? Duxlu oğlansan, gəl öz sinəni qabağa ver, görüm verə bilirsənmi? Verə bilməzsən! Can şirin şeydi axı! Guya sənin balan gəlib burda döyüşər? Ay döyüşdü ha! Yox, yox, heç vaxt döyüşməz! Çünki atası imkan verməz ki, onun oğlu gedib türklə döyüşsün. İmkanı var, pulu var, əli hər yerə çatır. Nə yolnan olur olsun, o öz oğlunu Qarabağa göndərməz, uzaqbaşı İrəvanda-zadda, ya başqa bir daldey yerdə başını girələyib çıxıb gedəcək".

Roman bəzi gizli mətləblərə də işıq salır. Belə səhnələrdən birini Anuşla qoz ağacının dialoqu təşkil edir: "Çox vaxt da mənim yanıma gələndə Zorikin qarasınca deyinirdin. Oğlunun da şikayətini mənə edirdin. Mən də özümlə fəxr edib, ucalığımı dərk edirdim. İnsan da elədir, gərək onu kənardan görüb dəyər versinlər. Hər kəs özü-özlüyündə o dəyəri görə bilmir. Yox, Zorik İsmayılin oğlu olsa da, ona heç oxşamır, çox murdar xasiyyəti var, murdarlıqda Aşota oxşayır, Aşotun əlindən su içib axı, - deyirdin". Bu cür faktlar oxucunu bilmədiyi və eşitmədiyi məsələlərdən agah edir. Zorik biləndə ki, türk İsmayıldan törəyib, onun türkə qarşı nifrəti artır. Bunu Zorikin anası danışır: "Müharibə hər şeyin üstündən bir qara xətt çəkdi. O, müharibəyə gedib qayıtmadı. Hər şey alt-üst oldu. Sonra Zorik biləndə ki, əsl atası İsmayıldi, uşaqda ona qarşı nifrət yarandı. Hər şeyi nifrətlə qarşıladı. Bunu o it oğlu Aşot demişdi ona".

***Belə sirli səhnələrdən biri də erməni qadının oğluna danışdığı əhvalatla bağlıdır. Erməni qadını maraqlı gizli məqamları açıqlayır: "Biz əvvəllər Türkiyədə yaşamışıq. Əslimiz, kökümüz o tərəflərə bağlıydı. Buralara çox sonralar gəlib çıxmışıq. Gözəl şəraitimiz, evimiz-eşiyimiz, bağ-baxçamız var idi, var-dövlətimiz başımızdan aşırdı. Bir şeydən kəm-kəsirimiz olmazdı. Atam türklərlə elə münasibət yaratmışdı ki, heç kəs atamdan şübhələnmirdi. Bir də arada eşidirdin ki, bir türk uşağı itkin düşüb. Nə qədər axtarsalar da, tapa bilmirdilər". Əslində, itkin düşən türk uşağı ermənilər tərəfindən oğurlanır və onların "yemi" olurdu.***


Ədalət.- 2020.- 21 fevral. S. 4.